**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# AZƏRBAYCANIN XARİCİ İQTİSADİ ƏLAQƏLƏRİNİN MAKROİQTİSADİ İNKİŞAFA TƏSİRLƏRİNİN EKONOMETRİK ANALİZİ

İxtisas: 5302.01 – "Ekonometrika, iqtisadi statistika"

Elm sahəsi: İqtisad elmləri

Iddiaçı: **Yeganə Seyfəl qızı Əlixanlı**

Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün
təqdim edilmiş dissertasiyanın
**AVTOREFERATI**

**BAKI – 2022**

Dissertasiya işi Azərbaycan Kooperasiya Universitetinin "Informatika və texniki fənlər" kafedrasında yerinə yetirilmişdir.

Elmi rəhbər: iqtisad elmləri doktoru, professor
**Murad Ramiz oğlu Tağıyev**

Rəsmi opponentlər: iqtisad elmləri doktoru, professor
**Namiq Faiq oğlu Tağıyev**

iqtisad üzrə fəlsəfə doktoru, dosent
**Aytəkin Telman qızı Əfəndiyeva**

iqtisad elmləri namizədi
**Murad Manaf oğlu Bağırzadə**

Azərbaycan Dövlət İqtisad Universitetinin bazasında fəaliyyət göstərən Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının FD 1.11 Dissertasiya Şurası

Dissertasiya şurasının sədri: əməkdar elm xadimi, iqtisad elmləri doktoru, professor
**Yadulla Həmdulla oğlu Həsənli**

Dissertasiya şurasının elmi katibi: iqtisad elmləri namizədi
**Rəşad Aktiv oğlu Hüseynov**

Elmi seminarın sədri: iqtisad elmləri doktoru, professor
**Ramiz Kamal oğlu İsgəndərov**

# GİRİŞ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.**

Hər bir ölkə üçün iqtisadi inkişafın təmin edilməsi və əhalinin rifah halının yaxşılaşdırılması mühüm əhəmiyyət kəsb edir. Bu məqsəd ölkənin bütün imkanlarının, o cümlədən, təbii sərvətinin, insan kapitalının, fiziki kapitalın səfərbər edilməsini tələb edir. Lakin reallıq göstərir ki, bütün ölkələr eyni səviyyədə inkişaf edə bilmir və xalqlar eyni dərəcədə rifah halına malik deyildirlər. Bəzi ölkələr daha varlıdır və onların əhalisinin həyat səviyyəsi daha yüksəkdir, bəzi ölkələr isə daha zəif inkişaf edir və əhalisinin mühüm hissəsi yoxsulluq işindədir. "Niyə bəzi ölkələr varlıdır, bəzi ölkələr isə kasıbdır" sualı həmişə elm adamlarını, o cümlədən, iqtisadçıları düşündürüb. Hələ iqtisad elminin formalaşdığı ilk dövrlərdə merkantilistlər ölkənin varlanması üçün ölkəyə daha çox qiymətli metalların gətirilməsini vacib hesab edirdilər. Fiziokratlar isə ölkənin sərvətinin əsasında kənd təsərrüfatının dayandığını iddia edərək, torpağa və əməyə əsas istehsal vasitələri kimi yanaşırdılar. A.Smit və onun davamçıları dövlətin sərvətinin əsasında azad iqtisadiyyatın, o cümlədən, azad ticarətin dayandığını iddia edirdilər. Keynis və onun davamçıları isə iqtisadi artım və iqtisadi inkişafda yalnız liberallığa arxayınlığın səhv olduğunu və lazım olan hallarda dövlətin iqtisadiyyata müdaxiləsinin vacibliyini qeyd edirdilər. Şumpeter və onun davamçıları isə iqtisadi artım və inkişafda innovativ yanaşmanın roluna üstünlük verirdilər. Neo-klassiklər, neo-keynsçilər, monetaristlər, institusionalistlər və sair müxtəlif iqtisadi məktəblərin nümayəndələri iqtisadi artım və inkişaf üçün müxtəlif modellər təklif edirdilər. İqtisadi artım və inkişaf nəzəriyyələrinin rəngarəngliyinə baxmayaraq, hər yeni təklif edilən model əvvəlkini daha da zənginləşdirərək irəli atılan addım hesab edilə bilər. Elə bu mənada iqtisadi inkişafda xarici ticarətin roluna merkantilistlər tərəfindən verilən dəyər həmişə diqqət mərkəzində olub. Müasir iqtisadi artım nəzəriyyələri arasında xüsusi etimada malik olan neo-keynsçilik, neoklassik, Horrod-Domar və ya Solou-Svan modellərində xarici ticarət fəaliyyəti birbaşa əks olunmasa da bu fəaliyyətin iqtisadi artıma və sosial-iqtisadi vəziyyətə təsirinin

öyrənilməsi maraq kəsb edir. Çünki dünya üzrə son 50 ildə xarici ticarət dövriyyəsi sürətlə inkişaf edir və iqtisadi artımı yüksək olan ölkələrdə xarici ticarət rejimi və dövriyyəsi inkişaf etməkdə olan ölkələrdən fərqlənir. Xarici ticarət multiplikasiya və akselerator effekti vasitəsilə iqtisadi artıma və inkişafa təsir göstərir. Lakin bu proses bütün ölkələrdə eyni nəticə vermir. Ona görə də xarici ticarətin makroiqtisadi və sosial-iqtisadi təsirlərinin kəmiyyətcə qiymətləndirilməsi mühüm elmi və praktiki əhəmiyyət daşıyır. Kəmiyyətcə qiymətləndirmə zamanı hələ ki ən etibarlı metodoloji instrument ekonometrik hesablamalardan istifadədir. Elə buna görə də biz öz tədqiqatımızda xarici ticarətin makroiqtisadi və sosial-iqtisadi təsirlərini ekonometrik metodlarla qiymətləndirməyi əsas götürürük.

Tədqiqatın yönəldiyi problem demək olar ki, bütün ölkələr üçün aktualdır. Çünki hər bir ölkə dünya bazarı ilə ticarət etməyə məhkumdur. Heç bir ölkə onun üçün zəruri olan bütün mal və xidmətləri öz sərhədləri daxilində istehsal etmək gücündə deyil. Digər tərəfdən, hər bir ölkə yalnız özü üçün istehsal etmək arzusunda da ola bilməz. Hər bir ölkənin müqayisəli üstün olduğu sahələr var. Hər bir ölkə daha zəngin olduğu istehsal vasitələrinə güvənərək onun üçün daha ucuz başa gələn mal və xidmətləri istehsal edərək dünya bazarına çıxarmağa çalışır. Lakin belə iqtisadi əlaqələrin onun inkişafı üçün nə dərəcədə faydalı olduğunu müəyyən etməsi qərar qəbulu prosesi üçün vacibdir. Belə ki, xarici ticarət rejimi müxtəlif ölkələrdə müxtəlifdir. Hətta hər bir ölkə üçün xarici ticarət rejimi müxtəlif zamanlarda müxtəlif səviyyədə ola bilər. Dünya bazarındakı konyukturadan, daxili istehsal həcmindən və sair şərtlərdən asılı olaraq, xarici ticarət rejiminin zəruri istiqamətdə dəyişdirilməsi və iqtisadi artımı stimullaşdırmaq üçün bu göstəricilər arasındakı əlaqənin kəmiyyətcə qiymətləndirilməsinə ehtiyac var. Ona görə də belə problemlər, demək olar ki, bütün ölkələrdə tədqiq olunur.

Xarici ticarətin iqtisadi artıma təsirləri Akanni, O.P. , Gemechu, G. Erfani, H.S. Balaguer, M., Lin, F.C. Baldwin, R. Bonelli, R. Haddad, M., J. De Melo, Weinhold, D., Yean, T. Sjoeholm, F. Və başqaları tərəfində müxtəlif ölkələrin timsalında tədqiq olunub. Azərbaycan iqtisadçıları bu problemi müxtəlif aspektlərdən tədqiq ediblər.

Azərbaycan timsalında xarici iqtisadi əlaqələrin iqtisadi inkişafa təsirləri Z.Ə.Səmədzadə, H.B.Rüstəmbəyov, Ş.S.Qafarov, Ş.H.Hacıyev, M.A.Əhmədov, Ə.İ.Bayramov, R.R.Quliyev, M.X.Meybullayev İ.A.Kərimov, M.G.Gülalıyev, D.Ə.Vəliyev, A.Ş.Şəkərəliyev, E.M.Hacızadə, M.Y.Quliyev, S.H.Pürhani, F.Ə.Qənbərov və başqaları tərəfindən tədqiq edilib. Azərbaycanın xarici iqtisadi əlaqələrinin iqtisadi inkişafa təsirlərini tədqiq edən hər bir tədqiqatçının nəticələrinə hörmətlə yanaşaraq, qeyd etmək lazımdır ki, xarici ticarətin makroiqtisadi və ölkədə sosial-iqtisadi duruma təsirinin ekonometrik metodlarla kəmiyyətcə qiymətləndirilməsi ilk dəfə olaraq aparılıb.

**Tədqiqatın obyekti** – Azərbaycanın xarici ticarət fəaliyyətidir.

**Tədqiqatın predmeti** – Azərbaycanın xarici ticarət fəaliyyətinin iqtisadi artıma və sosial-iqtisadi inkişafa təsirlərinin öyrənilməsidir.

**Tədqiqatın məqsəd və vəzifələri:** Azərbaycanın xarici ticarət fəaliyyəti vasitəsilə iqtisadi artımı stimullaşdırmaq və sosial-iqtisadi inkişafa nail olmaq tədqiqat işinin məqsədidir.

Qarşıya qoyulmuş məqsədə nail olmaq üçün müəyyən edilən vəzifələr aşağıdakılardan ibarətdir:

- Xarici ticarətin iqtisadi artım və iqtisadi inkişaf modellərində yerinin və əsas determinantlarnın müəyyən edilməsi;
- Xarici ticarətin iqtisadi artıma təsirlərinin qiymətləndirilməsi üçün müxtəlif tədqiqatlarda tətbiq edilən metodların müqayisəli araşdırılması;
- Xarici ticarətin sosial-iqtisadi təsirlərinin qiymətləndirilməsi üçün müxtəlif tədqiqatlarda tətbiq edilən metodların müqayisəli araşdırılması;
- Azərbaycanın xarici ticarət fəaliyyətinin əsas xüsusiyyətlərinin müəyyən edilməsi;
- Azərbaycanın xarici ticarət əlaqələrinin iqtisadi artıma təsirlərinin qiymətləndirilməsinin aparılması;
- Azərbaycanda xarici ticarətin sosial-qitisadi təsirlərinin qiymətləndirilməsininin aparılması;

- Azərbaycanda xarici ticarətin iqtisadi artıma təsirlərinin proqnozlaşdırılması;
- Azərbaycanda xarici ticarətin və birbaşa xarici investisiyaların qarşılıqlı təsirlərinin proqnozlaşdırılması
- Azərbaycanın xarici ticarət əlaqələrinin məşğulluğa təsirinin proqnozlaşdırılması

**Tədqiqat metodları.** Tədqiqat zamanı ekonometrik qiymətləndirmə üsullarında geniş istifadə edilib. Xarici ticarətin determinantlarının, o cümlədən, idxal, ixrac, ticarət dövriyyəsi, ticarət balansı, xarici ticarət azadlığı, ticarətin açıqlılığı göstəricilərinin ÜDM həcmi, iqtisadi artım və iqtisadi artım tempi ilə, həmçinin bəzi sosial-iqtisadi göstəricilərlə, məsələn, məşğulluq, yoxsulluq, ev təsərrüfatlarının gəlirləri və sair göstəricilərlə mümkün əlaqəsi müqayisəli təhlil edilərək təsnifləşdirilib. Bu problemlərin həllində ARDL modelindən, həmçinin Error Correction modelindən istifadə halları yoxlanılıb. Müxtəlif testlərin, o cümlədən, Dickey-Fuller, Phillips-Perron və Darbin-Uatson testi, həmçinin Granger səbəb-nəticə testinin tətbiqinə baxılıb.

**Müdafiəyə çıxarılan əsas müddəalar.** Tədqiqat işində aşağıdakı əsas müddəalar müdafiəyə çıxarılır:

- Azərbaycanın idxal, ixrac və ticarət balansının ÜDM həcminə təsirləri pozitivdir. Azərbaycanda xarici ticarət həcminin, xüsusilə idxalın artırılması üçün hər hansı tədbirlərin, o cümlədən liberallaşma tədbirlərinin ÜDM həcminə mənfi təsiri ilə bağlı arqumentlərin əsası yoxdur;
- Azərbaycanda ÜDM həcmi və onun dəyişməsinin xarici ticarət fəaliyyətini xarakterizə edən göstəricilərdən, o cümlədən, idxal, ixrac, ticarət balansı, ticarət dövriyyəsi, ticarət azadlığı və ticarətin açıqlılığı göstəricilərindən asılılığı səbəb-nəticə mahiyyətli əlaqələr deyil. Bunun əsas səbəbi, böyük ehtimalla, ölkədə ÜDM həcmində əsas hissənin neft və qaz hasilatı ilə bağlı olmasıdır;
- Azərbaycanda ev təsərrüfatlarının adambaşına illik gəlirlərində dəyişikliklərə xarici ticarət göstəriciləri, o cümlədən, idxal, ixrac, xarici ticarəti balansı, xarici ticarət dövriyyəsi

həcmlərinin, həmçinin xarici ticarət azadlığı və xarici ticarətin açıqlılığının dəyişməsi səbəb olmur;

- Azərbaycanda yoxsulluq səviyyəsinin bir illik dəyişməsi idxal həcminin, ixrac həcminin, ticarət dövriyyəsinin, ticarət balansının həcminin, həmçinin xarici ticarət azadlığının və xarici ticarətin açıqlılığının bir illik dəyişmələrindən səbəb-nəticə mahiyyətli asılılığa malik deyildir.

**Tədqiqatın elmi yeniliyi.** Dissertasiya işinin əsas elmi yeniliklərini aşağıdakı kimi qruplaşdırmaq olar:

1. xarici ticarətin iqtisadi artıma təsirləri ilə bağlı tədqiqatlar müqayisəli təhlil edilib və panel analizi vasitəsilə inkişaf etmiş ölkələrdə və inkişaf etməkdə olan ölkələrdə bu göstəricilər arasındakı əlaqənin xarakteri müəyyən edilmişdir;

2. xarici ticarətin yoxsulluğa təsirləri ilə bağlı tədqiqatlar müqayisəli təhlil edilib və gəlirlər üzrə təsnifləşdirilmiş müxtəlif ölkə qrupları üzrə bu göstəricilər arasındakı əlaqələr panel analizi vasitəsilə qiymətləndirilmişdir;

3. Məşğulluq ilə xarici ticarət dövriyyəsi, xarici ticarət balansı arasındakı əlaqələrə həsr edilən tədqiqatlar müqayisəli təhlil edilmiş və gəlir səviyyəsinə görə müxtəlif ölkə qruplarında məşğulluğun xarici ticarət göstəricilərindən asılılığı panel analiz vasitəsilə qiymətləndirilmişdir;

4. Ev təsərrüfatlarının gəlirlərinin ticarət dövriyyəsindən, idxal və ixracdan asılılığına həsr edilən tədqiqatlar müqayisəli təhlil edilmiş və gəlir səviyyəsinə görə müxtəlif ölkə qruplarında ev təsərrüfatlarının gəlirlərinin xarici ticarət göstəricilərindən asılılığı panel analiz vasitəsilə qiymətləndirilmişdir;

5. Azərbaycanda xarici ticarət fəaliyyətini xarakterizə edən göstəricilərlə, o cümlədən, idxal, ixrac, ticarət dövriyyəsi, ticarət balansı göstəriciləri ilə iqtisadi artım arasındakı əlaqə zaman sırası analizi ilə qiymətləndirilmişdir;

6. Azərbaycanda son 20 ildə yoxsulluq səviyyəsi ilə xarici ticarət göstəriciləri, o cümlədən ticarət azadlığı, ticarətin açıqlılığı göstəriciləri arasındakı əlaqə zaman sırası analizi metodu ilə qiymətləndirilmişdir;

7. Azərbaycanda son 20 ildə məşğulluq səviyyəsi ilə xarici ticarət balansı, xarici ticarət dövriyyəsi arasındakı əlaqələr zaman sırası analizi metodu ilə qiymətləndirilmişdir;

8. Azərbaycanda son 20 ildə ev təsərrüfatlarının gəlirlərinə xarici ticarətin təsirləri zaman sırası analizi metodu ilə qiymətləndirilmişdir.

9. Azərbaycanda iqtisadi artım və xarici ticarət göstəriciləri arasında səbəb-nəticə mahiyyətli əlaqələr Granger testi ilə yoxlanılmışdır;

10. Azərbaycanın xarici ticarət göstəriciləri ilə sosial-iqtisadi göstəricilər arasındakı əlaqələrin səbəb-nəticə mahiyyətli olması Granger testi ilə yoxlanılmışdır.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Dissertasiya işinin nəzəri əhəmiyyəti davamlı iqtisadi artıma və sosial-iqtisadi inkişafa nail olmaq üçün xarici ticarət əlaqələrinin təkmilləşdirilməsindən ibarətdir.

Tədqiqatın praktiki əhəmiyyəti - dissertasiya işində təklif olunan metodlar və praktiki tövsiyələr Azərbaycanda iqtisadi artıma və sosial-iqtisadi inkişafda mühüm rol oynaya bilər. Dissertasiya işində əldə edilən nəticələrdən milli iqtisadiyyatın rəqabətqabiliyyətliliyinin yüksəldilməsi üzrə dövlət siyasətinin işlənib hazırlanmasında, həmçinin, «Dünya iqtisadiyyatı», «Makroiqtisadiyyat», «Ümumi iqtisadi nəzəriyyə», «Beynəlxalq iqtisadi münasibətlər» fənlərinin tədrisində istifadə oluna bilər.

**Aprobasiyası və tətbiqi.** Dissertasiyada müəyyən edilmiş əsas müddəalar, nəzəri ümumiləşdirmələr, praktiki nəticələr və tövsiyələr müxtəlif elmi jurnallarda, Bakı şəhərlərində keçirilən elmi-praktiki konfranslarda, Londonda keçirilən International Conference on Mathematical Models & Computational Techniques in Science & Engineering və Proceedings of the Second Edition of the International Conference on Innovative Applied Energy konfranslarda, Isveçrədə keçirilən Elektrotexnika və informatika üzrə 5-ci Avropa konfransında məruzə edilmişdir. Dissertasiya işinin nəticələri üzrə ümumi 8 məqalə və 4 konfrans materialları, bunlardan 4 məqalə ölkədaxili, 4 məqalə SCOPUS bazasına daxil olan beynəlxalq jurnallarda dərc edilib, 3 xarici konfransların və 1 yerli konfransın materiallarında dərc olunub.

**Dissertasiya işinin yerinə yetirdiyi təşkilatın adı.** Azərbaycan Kooperasiya Universitetinin "Informatika və Texniki fənlər" kafedrası.

**Tədqiqat işinin quruluşu və həcmi.** Dissertasiya 3 fəsildən və 9 paraqrafdan, giriş, nəticə və təkliflərdən ibarətdir. Birinçi fəsil - 81159 işarə; ikinci fəsil- 47486 işarə; ücüncü fəsil – 37109 işarədən ibarədtir. Dissertasiya işinin ümumi həcmi 137 səhifədən və 215 min işarədən ibarətdir. 53 cədvəldən, 29 qrafikdən, nəticə və təklifdən, həmçinin 110 istifadə olunmuş mənbələrin siyahısından ibarətdir.

## Dissertasiya işinin strukturu

Giriş

I Fəsil: Xarici ticarət əlaqələrinin makroiqtisadi təsirlərinin öyrənilməsinin elmi və nəzəri əsaslari

1.1. Xarici ticarətin mahiyyəti və onun əsas determinantları

1.2. Xarici ticarətin fəaliyyətinin qiymətləndirilməsinin əsas determinantları

1.3. Xarici ticarətin məşğulluğa və yoxsulluğa təsirlərinin qiymətləndirilməsi (stasionarlığın yoxlanılması)

II Fəsil: Azərbaycanin xarici ticarət əlaqələrinin makroiqtisadi inkişafa təsirlərinin ekonometrik qiymətləndirilməsi

2.1. Azərbaycanın xarici ticarət fəaliyyətinin müasir vəziyyətinin qiymətləndirilməsi

2.2. Azərbaycanda xarici ticarət fəaliyyətinin makroiqtisadi təsirlərinin qiymətləndiriməsi

2.3. Azərbaycanda xarici ticarət və ümüdaxili məhsul istehsalı göstəricilərinin stasionarlığının qiymətləndirilməsi (Dickey-Fuller testi)

III Fəsil: Azərbaycanin xarici ticarət əlaqələrinin qisa və uzun müddətli dövrlərdə makroiqtisadi inkişafa təsirlərinin proqnozlaşdirilmasi

3.1. Azərbaycanda xarici ticarətin və bəzi sosial-iqtisadi göstəricilərin zaman sırasının stasionarlığının yoxlanması

3.2. Azərbaycanın xarici ticarətin iqtisadi artıma təsirlərinin Granger testi ilə analizi

3.3. Azərbaycanda xarici ticarətin bəzi sosial-iqtisadi göstəricilərə təsirinin Granger testi ilə qiymətləndirilməsi

Nəticə

İstifadə edilmiş ədəbiyyat siyahisi

## MÜDAFİƏ ÜÇÜN TƏQDİM EDİLƏN ƏSAS MÜDDƏALAR

**1-ci müddəa:** ***Azərbaycanın idxal, ixrac və ticarət balansının ÜDM həcminə təsirləri pozitivdir. Azərbaycanda xarici ticarət həcminin, xüsusilə idxalın artırılması üçün hər hansı tədbirlərin, o cümlədən liberallaşma tədbirlərinin ÜDM həcminə mənfi təsiri ilə bağlı arqumentlərin əsası yoxdur***

Dünya təsərrüfat sistemi genişləndikcə hər bir ölkənin dünya bazarından və inteqrasiya proseslərindən asılılığı artmaqla yanaşı, həm də ondan faydanalmaq imkanları yaranır. Dünya bazarına inteqrasiya, xarici ticarət həcminin, həmçinin coğrafiyasının genişlənməsi qlobal miqyasda əmək bölgüsünün yaranmasına və istehsal amillərindən səmərəli istifadəyə imkan verir. Məhz xarici iqtisadi əlaqələr vasitəsilə əmək bölgüsünün istehsal amillərinə təsiri iqtisadi artım funksiyasında təsir kanallarını müəyyən edir. Belə kanalların mövcudluğu xarici ticarətin iqtisadi artımda və əhalinin rifah halının yaxşılaşdırılmasında mühüm rol oynamasına şərait yaradır. Lakin nəzərə almaq lazımdır ki, xarici ticarət əlaqələrinin mövcudluğu hələ iqtisadi artım üçün kafi deyil. Belə ki, bu əlaqələrin iqtisadi artıma və rifah halına hansı istiqamətdə təsir etməsi ölkədə iqtisadi konyukturadan, ölkə iqtisadiyyatının özünəməxsusluğundan, xarici ticarətin strukturundan və sair asılıdır. Ona görə də hər bir ölkə öz xarici ticarət rejiminin və xarici ticarət fəaliyyətinin iqtisadi və sosial-iqtisadi təsirlərini kəmiyyətcə qiymətləndirərək belə əlaqələrin pozitiv nəticələrini artırmağa çalışır.

Azərbaycan üçün idxal həcminin ÜDM həcminə təsirlərinin araşdırılmasının da mühüm elmi və praktiki əhəmiyyəti var. Belə ki, son 25 ildə Azərbaycanda idxal həcminin sürətlə artması iqtisadi fəaliyyət sahələrində, xüsusilə qeyri-neft sektorunda yaradılan dəyərin həcminə təsirsiz ötüşmür. İqtisadi nəzəriyyəyə əsasən idxal həcmi artdıqca məcmu tələbin həcmi azalır. Bu, xərc metodu ilə hesablanan ÜDM həcminin də azalması deməkdir. Digər tərəfdən, idxal olunan malların strukturunda aralıq məhsullarının həcminin artması iqtisadiyyatın inkişafını stimullaşdırır. Azərbaycanın idxal məhsullarının strukturunun analizi deməyə əsas verir ki, aralıq

məhsulların həcmi idxalda o qədər də çox deyil. Amma son istehlak mallarının həcmi idxalda üstünlük təşkil edir. Xüsusilə, ərzaq məhsullarının, avtomobil və yüksək texnologiyalı məhsulların idxalının çox olması ÜDM həcminə mənfi təsir göstərir.

Lakin hər hansı mal qrupunun idxal həcminin artması hələ iqtisadi artımın zəifləməsi ilə nəticələnməyə də bilər. Belə ki, idxal mallarının hər hansı iqtisadi fəaliyyət sahəsində yaradılan dəyəri azaltması nəticəsində o sektordan digər sektorlara keçid baş verə bilər.

$$\widehat{GDP} = \underset{(0.4203)}{7.22} - \underset{(2318.47)}{6068.8} * IMP \qquad (1)$$

(1) reqresiya modeli yuxarıda qeyd etdiklərimizi bir daha təsdiq edir. Alınan nəticə göstərir ki, Azərbaycan iqtisadiyyatı üçün idxalın strukturu elədir ki, onun artması məcmu tələbi və xərc metodu ilə hesablanan ÜDM həcmini azaldır.

ÜDM həcminin *ixrac həcmindən asılılığı* ilə bağlı geniş tədqiqatlar aparılıb. İxracın iqtisadi artım üçün birbaşa təsiri və zəruriliyi merkantilistlərdən başlayaraq əksər iqtisadçılar tərəfindən təsdiq edilir.

Baxmayaraq ki, bu iki göstərici arasında əlaqənin ümumi trendi pozitivdir, amma hər bir ölkə üçün onun xarakteri və asılılıq dərəcəsi universal deyil.

Azərbaycan iqtisadiyyatında ixrac həcminin ÜDM həcminə təsirini belə bir cüt reqressiya tənliyi ilə ifadə edə bilərik

$$GDP_t = a_0 + a_1 * EXP_t + \mu_t$$

onda bu iki göstərici arasındakı əlaqə üçün $H_0$ hipotezi də inkar edilmiş olur.

$$\widehat{GDP} = \underset{(2915.388)}{5853.761} + \underset{(0.164853)}{1.7136} * EXP_t \qquad (2)$$

Azərbaycanda ÜDM həcminin ticarət balansından asılılığının ekonometrik hesablanması da göstərir ki, bu iki göstərici arasında əlaqə güclüdür (R-squared = 0.69).

$$\widehat{GDP}=11414.66 + 1.974764 * TB \quad (3)$$
$$(3489.981) \quad (0.27017)$$

Xarici ticarət balansı ilə ÜDM həcminin əlaqəsinin pozitiv olması Azərbaycan dövlətinin son 26 ildə xarici ticarət fəaliyyətini genişləndirməsi üçün həyata keçirdiyi iqtisadi siyasətin doğru olduğu qənaətinə gətirir. Xarici ticarət rejimlərinin sadələşdirilməsi və xarici iqtisadi fəaliyyətinin liberallaşması Azərbaycanın dünya təsərrüfat sisteminə sürətlə inteqrasiyasına səbəb olub.

**2-ci müddəa:** ***Azərbaycanda ÜDM həcmi və onun dəyişməsinin xarici ticarət fəaliyyətini xarakterizə edən göstəricilərdən, o cümlədən, idxal, ixrac, ticarət balansı, ticarət dövriyyəsi, ticarət azadlığı və ticarətin açıqlılığı göstəricilərindən asılılığı səbəb-nəticə mahiyyətli əlaqələr deyil. Bunun əsas səbəbi, böyük ehtimalla, ölkədə ÜDM həcmində əsas hissənin neft və qaz hasilatı ilə bağlı olmasıdır.***

Yuxarıda qeyd etdiyimiz kimi, ölkənin dünya bazarı ilə və ya onun hər hansı seqmenti ilə xarici ticarət əlaqəsində olması, heç də belə əlaqələrin iqtisadi artıma pozitiv təsir etməsi demək deyil. Bəzi ölkələrdə, xüsusilə təbii sərvətlərlə zəngin ölkələrin xarici ticarət fəaliyyətində diversifikasiya imkanları zəif olur. Belə hallarda adətən ixrac olunan təbii sərvətlərin satışından gələn gəlirlər hesabına ölkəyə zəruri mal və xidmətlər idxal edilir. Yəni belə formalaşan xarici ticarət fəaliyyətində ölkənin istehsal amillərinin səmərəli paylanması mümkün olmur. Kəmiyyətcə qiymətləndirmə zamanı məlum olur ki, xarici ticarət fəaliyyətinin iqtisadi artıma və ya rifah halına təsirləri səbəb-nəticə mahiyyətli deyil.

Azərbaycan da təbii sərvətlərlə zəngin ölkədir və təbii sərvətlərlə zəngin olan digər ölkələrə xas olan çoxlu sayda xüsusiyyətlər Azərbaycana da aiddir. Azərbaycanın xarici ticarət fəaliyyətinin makroiqtisadi göstəricilərə, o cümlədən, iqtisadi artıma, ev

təsərrüfatlarında gəlirlərə, məşğulluğa, yoxsulluq səviyyəsinə təsirlərini öyrənmək üçün xətti reqresiya metodundan istifadə edilib. Bu zaman xarici ticarət fəaliyyətini xarakterizə edən müstəqil göstəricilər olaraq idxal, ixrac, ticarət balansı, ticarət dövriyyəsi, ticarət azadlığı və ticarətin acıqlılığı göstəricilərindən istifadə edilib. Tədqiqatımızın predmetinə uyğun olaraq,

$$Y_t = \sum_{j=1}^{m} a_j * X_{t-j} + \sum_{j=1}^{m} b_j * Y_{t-j} + \theta_t \quad (4)$$

$$X_t = \sum_{j=1}^{m} c_j * X_{t-j} + \sum_{j=1}^{m} d_j * Y_{t-j} + \varepsilon_t \quad (5)$$

bərabərlikləri ÜDM həcminin dəyişməsinə ($\Delta GDP_t$), xarici ticarət fəaliyyətini xarakterizə edən
səbəbiyyət təsirlərinini öyrənmək üçün aşağıdakı kimi yaza bilərik:

$$\begin{cases} \Delta GDP_t = \sum_{j=1}^{m} a_j * \Delta İMP_{t-j} + \sum_{j=1}^{m} b_j * \Delta GDP_{t-j} + \theta_t \\ \Delta İMP_t = \sum_{j=1}^{m} c_j * \Delta İMP_{t-j} + \sum_{j=1}^{m} d_j * \Delta GDP_{t-j} + \varepsilon_t \end{cases} \quad (6)$$

Hesablamalar göstərir ki, $\Delta GDP_t$ və $\Delta İMP_t$ göstəriciləri arasında orta səviyyəli korrelyasiya əlaqəsi var. Lakin belə əlaqənin olması hələ bu göstəricilər arasında səbəbiyyət əlaqəsinin olmasını təsdiq etməyə əsas verimir. Ona görə də biz sistemə uyğun olaraq Granger səbəbiyyət testini yerinə yetirməliyik. 1, 2 və 3 illik laq-lar əsasında idxal və ÜDM həcmlərinin dəyişməsi arasındakı Granger testi göstərir ki, hər iki istiqamətdə səbəbiyyət əlaqəsi yoxdur və Azərbaycan üçün bu iki göstərici bir-birini şərtləndirmir. Qeyd edək ki, ilk baxışda ÜDM həcminin artması ilə idxal həcminin son 20 ildə davamlı olaraq artması belə bir yanlış nəticənin çıxarılmasına imkan verirdi ki, Azərbaycanda idxalın artmasının əsas səbəbi ÜDM həcminin artmasıdır.

Laq=1; 2; 3 olduğu hallarda Azərbaycanda idxal həcminin ÜDM həcminə və əks istiqamətdə təsirlərinin Granger testinin nəticələri 1-ci cədvəldə verilmişdir. Cədvəldən görünür ki, nə bütövlükdə idxal həcmi ÜDM həcminin, nə də əksinə, ÜDM həcmi idxal həcminin səbəbi kimi çıxış etmir. Yuxarıda qeyd etdiyimiz kimi, Azərbaycanın

idxal mallarının strukturu yüksək dərəcədən sabitdir və ÜDM həcminin mütləq qiyməti struktura ciddi təsir göstərmir. Həmçinin ÜDM həcmində əsas çəki xam neft ixracına və neft məhsullarının istehsalına aid olduğundan qarşılıqlı səbəbiyyət əlaqəsi güclü deyil.

**Cədvəl 1**

**Azərbaycanda idxal həcminin ÜDM həcminə və əks istiqamətdə təsirlərinin Granger testinin nəticələri**

| | Laq=1 | | | Laq=2 | | | Laq=3 | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | F-statistika | p-qiymət | hipotez | F-statistika | p-qiymət | hipotez | F-statistika | p-qiymət | hipotez |
| $İMP_t \longrightarrow GDP_t$ | 0.33306 | 0.5706 | $H_0$ | 0.44084 | 0.6511 | $H_0$ | 0.11140 | 0.9519 | $H_0$ |
| $GDP_t \longrightarrow İMP_t$ | 1.66980 | 0.2118 | $H_0$ | 0.64103 | 0.5398 | $H_0$ | 1.80567 | 0.1958 | $H_0$ |

Qeyd: müəllif tərəfinfən hesablanıb

Laq=1; 2; 3 olduğu hallarda Azərbaycanda idxal həcminin dəyişməsinin ÜDM həcmin dəyişməsinə və əks istiqamətdə təsirlərinin Granger testinin nəticələri 2-ci cədvəldə verilmişdir. Cədvəldən görünür ki, ÜDM həcminin dəyişməsi idxal həcminin də dəyişməsinə səbəb olur. Yəni ölkədə əhalinin gəlirləri artdıqca idxal mallarının həcmi də artır. Əks əlaqə isə mövcud deyil. Bu da nəzəriyyəyə tam uyğundur.

**Cədvəl 2**

**Azərbaycanda idxal həcminin dəyişməsinin ÜDM həcmin dəyişməsinə və əks istiqamətdə təsirlərinin Granger testinin nəticələri**

| | Laq=1 | | | Laq=2 | | | Laq=3 | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | F-statistika | p-qiymət | hipotez | F-statistika | p-qiymət | hipotez | F-statistika | p-qiymət | hipotez |
| $\Delta İMP_t \longrightarrow \Delta GDP_t$ | 0.91569 | 0.3513 | $H_0$ | 0.29121 | 0.7515 | $H_0$ | 0.30 | 0.8219 | $H_0$ |
| $\Delta GDP_t \longrightarrow \Delta İMP_t$ | 1.76402 | 0.2007 | $H_0$ | 1.17761 | 0.3349 | $H_0$ | 3.39 | 0.0536 | $H_1$ |

Qeyd: müəllif tərəfinfən hesablanıb

Granger testini $İMP_t$ və $GDP_t$ üçün yerinə yetirmək olar. Lakin nəzərə almaq lazımdır ki, bu göstəricilərin zaman sırasının heç biri I(0) dərəcədə stasionar deyil. Buna baxmayaraq, bu iki göstərici arasındakı sadə xətti reqresiya asılılığı kifayət qədər güclüdür ($R^2 = 0.86$). F-əhəmiyyətlilik dərəcəsi $2*10^{-10}$-dur. Lakin bu hələ səbəb-nəticə əlaqəsinin olması demək deyil. Hesablamalar göstərir ki, $İMP_t$ və $GDP_t$ üçün laq=1, 2 və 3 olan hallarda Granger testi bu iki göstərici arasında səbəbiyyət əlaqəsinin olmadığını göstərir.

Laq=1; 2 və 3 olduğu hallarda Azərbaycanda ixrac həcminin ÜDM həcminə və əks istiqamətdə təsirlərinin Granger testinin nəticələri 3-cü cədvəldə verilmişdir:

**Cədvəl 3**

**Azərbaycanda ixrac həcminin ÜDM həcminə və əks istiqamətdə təsirlərinin Granger testi**

| | Laq=1 | | | Laq=2 | | | Laq=3 | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | F-statistika | p-qiymət | hipotez | F-statistika | p-qiymət | hipotez | F-statistika | p-qiymət | hipotez |
| $EXP_t \longrightarrow GDP_t$ | 15.8632 | 0.0008 | $H_1$ | 4.06821 | 0.0373 | $H_1$ | 4.97950 | 0.0162 | $H_1$ |
| $GDP_t \longrightarrow EXP_t$ | 3.92486 | 0.0622 | $H_0$ | 1.87128 | 0.1861 | $H_0$ | 2.25703 | 0.1301 | $H_0$ |

Qeyd: müəllif tərəfinfən hesablanıb

$$GDP_t = \sum_{j=1}^{m} a_j * EXP_{t-j} + \sum_{j=1}^{m} b_j * GDP_{t-j} + \theta_t$$
$$EXP_t = \sum_{j=1}^{m} c_j * EXP_{t-j} + \sum_{j=1}^{m} d_j * GDP_{t-j} + \varepsilon_t \quad (7)$$

Bu bərabərliyə əsasən ÜDM həcmindəki dəyişikliklərlə ixrac həcmindəki dəyişikliklər arasındakı əlaqədə səbəbiyyətin olduğunu müəyyən etməyə çalışaq. İxrac və ÜDM həcmlərinin son 23 ildəki göstəriciləri arasındakı xətti reqresiya əlaqəsi kifayət qədər güclüdür ($R^2 = 0.95$). F-əhəmiyyətlilik dərəcəsi 7.35*$10^{-15}$-dir. Lakin belə güclü reqresiya əlaqəsinin həqiqətən səbəb-nəticə əlaqəsi olmasını sübut etmək üçün biz bu zaman sıraları arasında Granger səbəbiyyətinin olmasını yoxlamalıyıq. Hesablamalar göstərir ki, $EXP_t$ və $GDP_t$ üçün laq=1, 2 və 3 olan hallarda Granger testi bu iki göstərici arasında səbəbiyyət əlaqəsinin olduğunu göstərir. Lakin belə səbəbiyyət əlaqəsi birtərəflidir, daha dəqiq desək, ixrac həcmi ÜDM həcminin səbəbi kimi çıxış edir.

Laq=1; 2 və 3 olduğu hallarda Azərbaycanda ixrac həcminin dəyişməsinin ÜDM həcminin dəyişməsinə və əks istiqamətdə təsirlərinin Granger testinin nəticələri 4-cü cədvəldə verilmişdir:

**Cədvəl 4**

**Azərbaycanda ixrac həcminin dəyişməsinin ÜDM həcminin dəyişməsinə və əks istiqamətdə təsirlərinin Granger testi**

| | Laq=1 | | | Laq=2 | | | Laq=3 | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | F-statistika | p-qiymət | hipotez | F-statistika | p-qiymət | hipotez | F-statistika | p-qiymət | hipotez |
| $\Delta EXP_t \longrightarrow \Delta GDP_t$ | 1.80244 | 0.1961 | $H_0$ | 0.63672 | 0.5427 | $H_0$ | 1.98433 | 0.1702 | $H_0$ |
| $\Delta GDP_t \longrightarrow \Delta EXP_t$ | 1.09800 | 0.3086 | $H_0$ | 0.52091 | 0.6043 | $H_0$ | 1.09447 | 0.3890 | $H_0$ |

Qeyd: müəllif tərəfinfən hesablanıb

Hesablamalar göstərir ki, $\Delta GDP_t$ və $\Delta EXP_t$ göstəriciləri arasında yüksək dərəcəli korrelyasiya əlaqəsi var ($R^2$ =0.778252; F-əhəmiyyətlilik dərəcəsi=5.67*$10^{-8}$). Lakin bu göstəricilər arasında belə əlaqənin ciddi olması onun səbəbiyyət əlaqəsi olmasını təsdiq etməyə əsas verilmir. Ona görə də Granger səbəbiyyət testi yerinə yetirilməlidir. Hesablamalar göstərir ki, 1, 2 və 3 illik laq-lar əsasında ixrac və ÜDM həcmlərinin dəyişməsi arasındakı Granger testinə əsasən, hər iki istiqamətdə səbəbiyyət əlaqəsi yoxdur və Azərbaycan üçün bu iki göstərici bir-birini şərtləndirmir. Qeyd edək ki, ilk baxışda ÜDM həcminin artması ilə ixrac həcminin son 20 ildə davamlı olaraq artması belə bir yanlış nəticənin çıxarılmasına imkan verirdi ki, Azərbaycanda ixracın artmasının əsas səbəbi ÜDM həcminin artmasıdır. Yaxud əksinə, ixracın artması ÜDM həcminin artması ilə şərtlənir. Lakin Granger testi sübut edir ki, bu iki göstərici arasında səbəbiyyət əlaqəsi yoxdur və laq= 1; 2; 3 olduğu hallarda hər iki istiqamətdə $H_0$ hipotezi özünün doğruldur. İxrac həcmi ilə ÜDM həcmi arasındakı birtərəfli səbəbiyyət əlaqəsindən fərqli olaraq, bu göstəricilərin dəyişməsi arasındakı əalqədə səbəbiyyət yoxdur. Başqa

sözlə desək, Azərbaycanın ixrac həcmindəki dəyişmələr ÜDM artımına səbəb olmur. Həmçinin ÜDM artımı ixracda dəyişmələrə səbəb olmur.

Laq=1; 2 və 3 olduğu hallarda Azərbaycanda ticarət balansının ÜDM həcminə və əks istiqamətdə təsirlərinin Granger testinin nəticələri 5-ci cədvəldə verilmişdir:

**Cədvəl 5**

**Azərbaycanda ticarət balansının ÜDM həcminə və əks istiqamətdə təsirlərinin Granger testi**

| | Laq=1 | | | Laq=2 | | | Laq=3 | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | F-statistika | p-qiymət | hipotez | F-statistika | p-qiymət | hipotez | F-statistika | p-qiymət | hipotez |
| $TB_t \longrightarrow GDP_t$ | 7.26578 | 0.0143 | $H_1$ | 1.65012 | 0.2231 | $H_0$ | 1.61385 | 0.2343 | $H_0$ |
| $GDP_t \longrightarrow TB_t$ | 1.48928 | 0.2373 | $H_0$ | 0.61026 | 0.5554 | $H_0$ | 0.64370 | 0.6005 | $H_0$ |

Qeyd: müəllif tərəfinfən hesablanıb

Ticarət balansının və ÜDM həcmlərinin son 23 ildəki göstəriciləri arasındakı xətti reqresiya əlaqəsi kifayət qədər güclüdür ($R^2$ =0.69). F-əhəmiyyətlilik dərəcəsi 7.64*$10^{-7}$-dir. Lakin belə güclü reqresiya əlaqəsinin həqiqətən səbəb-nəticə əlaqəsi olmasını sübut etmək üçün biz bu zaman sıraları arasında Granger səbəbiyyətinin olmasını yoxlamalıyıq. Hesablamalar göstərir ki, $TB_t$ və $GDP_t$ üçün laq = 2 və 3 olan hallarda Granger testi bu iki göstərici arasında səbəbiyyət əlaqəsinin olmadığını göstərir. Granger testi laq = 1 halında isə birtərəfli, yəni ticarət balansından ÜDM həcminə yönələn səbəbiyyət əlaqəsinin olduğunu göstərir. Lakin nəzərə alsaq ki, $TB_t$ və $GDP_t$

stasionar zaman sıraları deyil, onda belə əlaqənin həqiqi olması sübhə doğurur.

Laq = 1; 2 və 3 olduğu hallarda Azərbaycanda ticarət balansinin dəyişməsinin üdm həcminin dəyişməsinə və əks istiqamətdə təsirlərinin Granger testinin nəticələri 6-cı cədvəldə verilmişdir:

**Cədvəl 6**

**Azərbaycanda ticarət balansinin dəyişməsinin üdm həcminin dəyişməsinə və əks istiqamətdə təsirlərinin Granger testi**

| | Laq=1 | | | Laq=2 | | | Laq=3 | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | F-statistika | p-qiymət | hipotez | F-statistika | p-qiymət | hipotez | F-statistika | p-qiymət | hipotez |
| $\Delta TB_t \longrightarrow \Delta GDP_t$ | 2.70262 | 0.1175 | $H_0$ | 0.93169 | 0.4155 | $H_0$ | 1.96283 | 0.1735 | $H_0$ |
| $\Delta GDP_t \longrightarrow \Delta TB_t$ | 2.20808 | 0.1546 | $H_0$ | 1.84837 | 0.1916 | $H_0$ | 1.49627 | 0.2655 | $H_0$ |

Qeyd: müəllif tərəfinfən hesablanıb

$$\begin{aligned} \Delta GDP_t &= \sum_{j=1}^{m} a_j * \Delta TB_{t-j} + \sum_{j=1}^{m} b_j * \Delta GDP_{t-j} + \theta_t \\ \Delta TB_t &= \sum_{j=1}^{m} c_j * \Delta TB_{t-j} + \sum_{j=1}^{m} d_j * \Delta GDP_{t-j} + \varepsilon_t \end{aligned} \quad (8)$$

Hesablamalar göstərir ki, $\Delta GDP_t$ və $\Delta TB_t$ göstəriciləri arasında da yüksək dərəcəli korrelyasiya əlaqəsi var ($R^2 = 0.646407$; F-əhəmiyyətlilik dərəcəsi = $6.54*10^{-6}$). Lakin bu göstəricilər arasında belə əlaqənin ciddi olması onun səbəbiyyət əlaqəsi olmasını təsdiq etməyə əsas verimir. Ona görə də Granger səbəbiyyət testini yerinə yetirilməlidir. Hesablamalar göstərir ki, 1, 2 və 3 illik laq-lar əsasında ticarət balansı və ÜDM həcmlərinin dəyişməsi arasındakı Granger testinə əsasən, hər iki istiqamətdə səbəbiyyət əlaqəsi yoxdur və Azərbaycan üçün bu iki göstərici bir-birini şərtləndirmir

Laq = 1; 2 və 3 olduğu hallarda Azərbaycanda ticarət dövriyyəsinin ÜDM həcminə və əks istiqamətdə təsirlərinin Granger testinin nəticələri 7-ci cədvəldə verilmişdir:

**Cədvəl 7**

**Azərbaycanda ticarət dövriyyəsinin ÜDM həcminə və əks istiqamətdə təsirlərinin Granger testinin nəticələri**

| | Laq=1 | | | Laq=2 | | | Laq=3 | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | F-statistika | p-qiymət | hipotez | F-statistika | p-qiymət | hipotez | F-statistika | p-qiymət | hipotez |
| $TT_t \longrightarrow GDP_t$ | 9.93196 | 0.0053 | $H_1$ | 2.98759 | 0.0790 | $H_0$ | 1.99630 | 0.1644 | $H_0$ |
| $GDP_t \longrightarrow TT_t$ | 5.07445 | 0.0363 | $H_1$ | 1.46365 | 0.2608 | $H_0$ | 1.63969 | 0.2286 | $H_0$ |

Qeyd: müəllif tərəfinfən hesablanıb

$$GDP_t = \sum_{j=1}^{m} a_j * TT_{t-j} + \sum_{j=1}^{m} b_j * GDP_{t-j} + \theta_t$$
$$TT_t = \sum_{j=1}^{m} c_j * TT_{t-j} + \sum_{j=1}^{m} d_j * GDP_{t-j} + \varepsilon_t \qquad (9)$$

Ticarət dövriyyəsi və ÜDM həcmlərinin son 23 ildəki göstəriciləri arasındakı xətti reqresiya əlaqəsi kifayət qədər güclüdür ($R^2 = 0.97$). F-əhəmiyyətlilik dərəcəsi 9*$10^{-18}$-dir. Lakin belə güclü reqresiya əlaqəsinin həqiqətən səbəb-nəticə əlaqəsi olmasını sübut etmək üçün biz bu zaman sıraları arasında Granger səbəbiyyətinin olmasını yoxlamalıyıq. Hesablamalar göstərir ki, $TT_t$ və $GDP_t$ üçün laq=1 olan hal Granger testi bu iki göstərici arasında iki istiqamətli səbəbiyyət əlaqəsinin olduğunu göstərir. Lakin laq=2 və 3 olan hallarda Granger testi bu iki göstərici arasında heç bir istiqamətdə səbəbiyyət əlaqəsinin olmadığını göstərir.

**3-cü müddəa:** ***Azərbaycanda ev təsərrüfatlarının adambaşına illik gəlirlərində dəyişikliklərə xarici ticarət göstəriciləri, o cümlədən, idxal, ixrac, xarici ticarəti balansı, xarici ticarət***

***dövriyyəsi həcmlərinin, həmçinin xarici ticarət azadlığı və xarici ticarətin açıqlılığının dəyişməsi səbəb olmur.***

Azərbaycanın xarici ticarət fəaliyyətində neft və qaz ixracı mühüm çəkiyə malik olduğundan və gələn gəlirlər Dövlət Neft Fondunda və SOCAR-da cəmləşdiyindən ev təsərrüfatlarının gəlirlərinə birbaşa təsir göstərmir. Əksinə ev təsərrüfatlarında idxal olunan malların istehlak həcmi yüksək olduğundan ev təsərrüfatlarının xərclərinin mühüm hissəsi belə malların istehlakı ilə bağlıdır. Odur ki, xarici ticarət rejiminin və fəaliyyətinin ev təsərrüfatlarının gəlirlərinə təsiri nəzərəçarpacaq dərəcədə deyil. Buna baxmayaraq, bu göstəricilər arasındakı əlaqənin kəmiyyətcə qiymətləndirilməsi və ekonometrik olaraq, sübut olunması mühüm əhəmiyyət daşıyır.

Bu zaman sıralarından yalnız $\Delta HHRPC_t$ zaman sırası stasionar deyil. Ev təsərrüfatlarında adambaşına illik gəlirlərin dəyişməsinin ($\Delta HHRPC_t$) xarici ticarət göstəricilərinin dəyişməsindən reqresiya asılılılığı 8-ci cədvəldə verilmişdir.

**Cədvəl 8**

**Ev təsərrüfatlarında a.b. illik gəlirlərin dəyişməsinin xarici ticarət göstəricilərinin dəyişməsindən reqresiya asılılılığı**

| | $R^2$ | F-əhəmiyyətlilik | Standart xəta | 1-ci əmsal | 2-ci əmsal |
|---|---|---|---|---|---|
| $\Delta İMP_t$ | 0.444186 | 0.003483 | 0.044206 | -47.2275 | 0.153055 |
| $\Delta EXP_t$ | 0.245341 | 0.043206 | 0.013155 | 53.49835 | 0.029051 |
| $\Delta TT_t$ | 0.314609 | 0.019161 | 0.010566 | 29.89926 | 0.027725 |
| $\Delta TB_t$ | 0.146277 | 0.129745 | 0.01646 | 81.29495 | 0.026389 |
| $\Delta FTF_t$ | 0.01442 | 0.646188 | 67.88231 | 66.81144 | 31.80039 |
| $\Delta FTO_t$ | 0.009284 | 0.712963 | 338.1253 | 93.13423 | -126.772 |

Qeyd: müəllif tərəfinfən hesablanıb

Beləliklə, ev təsərrüfatlarında adambaşına illik gəlirlərdəki bir illik dəyişmələrin idxal həcminin, ixrac həcminin və ticarət dövriyyəsinin həcminin bir illik dəyişmələrindən reqresiya asılılığı üçün 95% -lik etibarlılıq üçün F-əhəmiyyətlilik göstəricisi yol verilən inetrvalda yerləşir. Lakin ticarət balansının, xarici ticarət azadlığının və xarici

ticarətin açıqlılığının dəyişməsi ilə reqresiya asılılığının F-əhəmiyyətlilik göstəricisi yol verilən intervaldan kənardadır

Hesablamalar göstərir ki, $\Delta\beta_t = \alpha * \beta_{t-1} + \nu_t$ reqresiya tənliyində $\tau = -3.38 < \tau_c = -3.37$ və F-əhəmiyyətlilik =0.00446<0.05. Ona görə də $\Delta İMP_t$ və $\Delta HHRPC_t$ zaman sıralarını ko-inteqrasiya olunmuş hesab etmək olar. Beləliklə, $\Delta IMP_t$ və $\Delta HHRPC_t$asılılığı səbəb-nəticə mahiyyətlidir. Belə səbəb-nəticə əlaqəsinin istiqamətini, yəni belə əlaqənin $\Delta İMP_t \rightarrow \Delta HHRPC_t$, yoxsa $\Delta HHRPC_t \rightarrow \Delta İMP_t$müəyyən etmək üçün biz Granger testindən istifadə edə bilərik. Granger testi göstərir ki, Laq=1; 2; 3 hallarının heç birində nə $\Delta İMP_t \rightarrow \Delta HHRPC_t$ istiqamətli, nə də $\Delta HHRPC_t \rightarrow \Delta İMP_t$ istiqamətli səbəb-nəticə əlaqəsi yoxdur.

$\Delta\gamma_t = \alpha * \gamma_{t-1} + \nu_t$ reqresiya tənliyində $\tau = -2.42 > \tau_c = -3.37$ və F-əhəmiyyətlilik = 0.029459<0.05. Ona görə də $\Delta EXP_t$ və $\Delta HHRPC_t$ zaman sıralarını ko-inteqrasiya olunmuş hesab etmək olmaz. Beləliklə, $\Delta EXP_t \rightarrow \Delta HHRPC_t$ asılılığı səbəb-nəticə mahiyyətli deyil.

$\Delta\varepsilon_t = \alpha * \varepsilon_{t-1} + \nu_t$ reqresiya tənliyində isə $\tau = -2.66 > \tau_c = -3.37$ və F-əhəmiyyətlilik = 0.018532<0.05. Ona görə də $\Delta TT_t$ və $\Delta HHRPC_t$ zaman sıralarını ko-inteqrasiya olunmuş hesab etmək olmaz. Beləliklə, $\Delta TT_t \rightarrow \Delta HHRPC_t$ asılılığı səbəb-nəticə mahiyyətli deyil.

Beləliklə, deyə bilərik ki, Azərbaycanda ev təsərrüfatlarının adambaşına illik gəlirlərində dəyişikliklərə xarici ticarət göstəriciləri, o cümlədən, idxal, ixrac, xarici ticarəti balansı, xarici ticarət dövriyyəsi həcmlərinin, həmçinin xarici ticarət azadlığı və xarici ticarətin açıqlılığının dəyişməsi səbəb olmur.

Azərbaycanda xarici ticarəti xarakterizə edən əsas göstəricilərin, o cümlədən, 1)İdxalın; 2) İxracın; 3) Xarici ticarət balansının; 4)Xarici ticarət dövriyyəsinin; 5) Xarici ticarət açıqlılığının 6) Xarici ticarət azadlığının bəzi sosial-iqtisadi göstəricilərə, o cümlədən, yoxsulluq səviyyəsinə, məşğulluğa, ev təsərrüfatlarının gəlirlərinə səbəb-nəticə xarakterili təsirlərini öyrənmək üçün bu göstəricilər arasındakı reqresiya əlaqələlərinin Granger testi ilə yoxlanılmasına ehtiyac var.

**4-cü müddəa:** ***Azərbaycanda yoxsulluq səviyyəsinin bir illik dəyişməsi idxal həcminin, ixrac həcminin, ticarət dövriyyəsinin, ticarət balansının həcminin, həmçinin xarici ticarət azadlığının və xarici ticarətin açıqlılığının bir illik dəyişmələrindən səbəb-nəticə mahiyyətli asılılığa malik deyildir.***

Yoxsulluq səviyyəsini xarakterizə edən zaman sırası ilə idxalın, ixracın, ticarət balansının, ticarət dövriyyəsinin, xarici ticarət azadlığının və xarici ticarət açıqlılığı zaman sıraları arasında ko-inteqrasiya yoxdur. Ona görə də iddia etmək olar ki, 1) $İMP_t \rightarrow POV_t$; 2) $EXP_t \rightarrow POV_t$; 3) $TB_t \rightarrow POV_t$; 4) $TT_t \rightarrow POV_t$; 5) $FTF_t \rightarrow POV_t$ göstəriciləri arasında güclü korrelyasiya əlaqəsinin olmasına baxmayaraq, bu əlaqə "həqiqi" deyil və bu göstəricilər arasında səbəb-nəticə əlaqələri yoxdur. Başqa sözlə desək, bu göstəricilər arasında səbəb-nəticə əlaqələrinin olmamas ilə bağlı $H_0$ hipotezi özünü doğruldur.

$\Delta İMP_t$, $\Delta EXP_t$, $\Delta TB_t$, $\Delta TT_t$, $\Delta FTF_t$ və $\Delta FTO_t$ zaman sıraları I(1) dərəcədə stasionar olduğundan, lakin $\Delta POV_t$ I(1) dərəcədən stasionar olmadığından onların ko-inteqrasiya olunmasını yoxlamaq üçün aşağıdakı hipotezləri irəli sürürük: Yuxaıdakı nəticələri nəzərə alaraq, yuxarıda nəzərdən keçirdiyimiz göstəricilərin dəyişməsi arasındakı əlaqənin nə dərəcədə səbəb-nəticə mahiyyətli olduğunu müəyyən etmək üçün aşağıdakı hipotezlər əsasında ko-inteqrasiya testlərini yerinə yetirək:

1) $\Delta POV_t$ və $\Delta İMP_t$ zaman sıraları ko-inteqrasiya olunan deyildirlər, yəni $H_0$ hipotezi özünü doğruldur;

1) $\Delta POV_t$ və $\Delta EXP_t$ zaman sıraları ko-inteqrasiya olunan deyildirlər, yəni $H_0$ hipotezi özünü doğruldur;

2) $\Delta POV_t$ və $\Delta TB_t$ zaman sıraları ko-inteqrasiya olunan deyildirlər, yəni $H_0$ hipotezi özünü doğruldur;

3) $\Delta POV_t$ və $\Delta TT_t$ zaman sıraları ko-inteqrasiya olunan deyildirlər, yəni $H_0$ hipotezi özünü doğruldur;

4) $\Delta POV_t$ və $\Delta FTF_t$ zaman sıraları ko-inteqrasiya olunan deyildirlər, yəni $H_0$ hipotezi özünü doğruldur;

5) $\Delta POV_t$ və $\Delta FTO_t$ zaman sıraları ko-inteqrasiya olunan deyildirlər, yəni $H_0$ hipotezi özünü doğruldur.

Bu zaman sıralarından yalnız $\Delta POV_t$ zaman sırası stasionar deyil. Lakin onla digər zaman sıraları arasında, ($\Delta FTO_t$ zaman sırası istisna olmaqla) ciddi reqresiya əlaqəsi var (cədvəl 9).

**Cədvəl 9**

**Yoxsulluq səviyyəsinin dəyişməsinin ($\Delta POV_t$) xarici ticarət göstəricilərinin dəyişməsindən reqresiya asılılılığı**

| | $R^2$ | F-əhəmiyyətlilik | Standart xəta | 1-ci əmsal | 2-ci əmsal |
|---|---|---|---|---|---|
| $\Delta İMP_t$ | 0.12453 | 0.164726 | 0.000361 | -2.09951 | -0.00053 |
| $\Delta EXP_t$ | 0.208847 | 0.065152 | 8.76E-05 | -2.34535 | -0.00017 |
| $\Delta TT_t$ | 0.21262 | 0.06247 | 7.36E-05 | -2.24502 | -0.00015 |
| $\Delta TB_t$ | 0.186274 | 0.083654 | 0.000105 | -2.49646 | -0.00019 |
| $\Delta FTF_t$ | 0.000533 | 0.929917 | 0.444538 | -2.54961 | -0.03976 |
| $\Delta FTO_t$ | 0.017615 | 0.611593 | 2.189565 | -2.58115 | -1.13555 |

Qeyd: müəllif tərəfinfən hesablanıb

9-cu cədvəldən görünür ki, yoxsulluq səviyyəsinin bir illik dəyişməsi idxal həcminin, ixrac həcminin, ticarət dövriyyəsinin, ticarət balansının həcminin, həmçinin xarici ticarət azadlığının və xarici ticarətin açıqlılığının bir illik dəyişmələrindən reqresiya asılılığı üçün 95% -lik etibarlılıq üçün F-əhəmiyyətlilik göstəricisi yol verilən inetrvalda deyildir. Ona görə də bu göstəricilər arasında səbəb-nəticə mahiyyətli asılılığın olması mümkün deyildir.

# NƏTİCƏ və TƏKLİFLƏR

Tədqiqat zamanı xarici ticarətin iqtisadi artıma və iqtisadi inkişafa təsirlərini qiymətləndirmək üçün müxtəlif qiymətləndirmə modellərindən istifadə edilm işdir. Həmçinin xarici ticarətin iqtisadi artıma təsirlərinin qiymətləndirilməsi üçün müxtəlif tədqiqatlarda tətbiq edilən metodların müqayisəli aparılmışdır. Xarici ticarətin sosial-iqtisadi təsirlərinin qiymətləndirilməsi üçün müxtəlif tədqiqatlarda tətbiq edilən metodlar müqayisə edilərək Azərbaycanın xarici ticarət fəaliyyətinin əsas xüsusiyyətləri müəyyən edilmiş və Azərbaycanın xarici ticarət əlaqələrinin iqtisadi artıma və bəzi sosial-iqtisadi göstəricilərə təsirləri qiymətləndirilmişdir.

Tədqiqat zamanı əldə edilən əsas nəticələri aşağıdakı kimi qruplaşdırmaq olar:

1. Azərbaycanın idxal, ixrac və ticarət balansının ÜDM həcminə təsirləri pozitivdir. Azərbaycanda xarici ticarət həcminin, xüsusilə idxalın artırılması üçün hər hansı tədbirlərin, o cümlədən liberallaşma tədbirlərinin ÜDM həcminə mənfi təsiri ilə bağlı arqumentlərin əsası yoxdur;

2. Azərbaycanda ÜDM həcmi və onun dəyişməsinin xarici ticarət fəaliyyətini xarakterizə edən göstəricilərdən, o cümlədən, idxal, ixrac, ticarət balansı, ticarət dövriyyəsi, ticarət azadlığı və ticarətin açıqlılığı göstəricilərindən asılılığı səbəb-nəticə mahiyyətli əlaqələr deyil. Bunun əsas səbəbi, böyük ehtimalla, ölkədə ÜDM həcmində əsas hissənin neft və qaz hasilatı ilə bağlı olmasıdır.

3. Azərbaycanda ev təsərrüfatlarının adambaşına illik gəlirlərində dəyişikliklərə xarici ticarət göstəriciləri, o cümlədən, idxal, ixrac, xarici ticarəti balansı, xarici ticarət dövriyyəsi həcmlərinin, həmçinin xarici ticarət azadlığı və xarici ticarətin açıqlılığının dəyişməsi səbəb olmur.

4. Azərbaycanda yoxsulluq səviyyəsinin bir illik dəyişməsi idxal həcminin, ixrac həcminin, ticarət dövriyyəsinin, ticarət balansının həcminin, həmçinin xarici ticarət azadlığının və xarici ticarətin açıqlılığının bir illik dəyişmələrindən reqresiya asılılığı üçün 95% -lik etibarlılıq üçün F-əhəmiyyətlilik göstəricisi yol verilən inetrvalda

deyildir. Ona görə də bu göstəricilər arasında səbəb-nəticə mahiyyətli asılılığın olması mümkün deyildir.

5. Azərbaycan iqtisadiyyatı bəzi malların, məsələn, avtomobil idxalında tam asılıdır və ona görə də əhalinin gəlirlərinin dəyişməsi ilə müşaiət olunan hər hansı bir hadisə, məsələn, Covid-19 idxal həcminə və qiymətlərə dərhal təsir edir.

Tədqiqat zamanı əldə edilən elmi nəticələri nəzərə alaraq, qərarqəbul ediciləri üçün aşağıdakı təklifləri edə bilərik:

1. Azərbaycanın idxal, ixrac və ticarət balansının ÜDM həcminə təsirləri pozitiv olduğunu nəzərə alaraq, xarici ticarət rejiminin bir qədər də liberallaşdırılması xarici ticarət fəaliyyətini daha da genişləndirər. xüsusilə, Azərbaycanda istehsalı olmayan və ya qismən olan malların idxalına qoyulan tariflərin azaldılmasına ehtiyac var.

2. Azərbaycanda ÜDM həcmi və onun dəyişməsinin xarici ticarət fəaliyyətini xarakterizə edən göstəricilərdən, o cümlədən, idxal, ixrac, ticarət balansı, ticarət dövriyyəsi, ticarət azadlığı və ticarətin açıqlılığı göstəricilərindən asılılığı səbəb-nəticə mahiyyətli əlaqəl olmadığından bu fəaliyyətin yerinə yetirilməsi zamanı iqtisadi artıma hər hansı mənfi təsirlərin olacağı gözlənilmir. Ona görə də xarici ticarət siyasəti həyata keçirilərkən, iqtisadi artımın təmin edilməsi məqsədləri deyil, istehlakçıların gəlirlərinin artırılması məqsədləri güdülməlidir. Bu halda idxal mallarına olan tələb artmış olacaq. Tələbin artması isə həm daxili istehsalı, həm də xarici iqtisadi fəaliyyəti gücləndirəcək;

3. Azərbaycanda ev təsərrüfatlarının adambaşına illik gəlirlərinə və yoxsulluq səviyyəsinə xarici ticarət göstəricilərinin təsir etməməsi də bir daha göstərir ki, xarici ticarət rejiminin sahələşdirilməsinə və tariflərin azaldılmasına ehtiyac var.

## Dərc olunmuş elmi əsərlərin siyahısı:

1. Əlixanlı, Y.S. Azərbaycanda xarici ticarət fəaliyyətinin makroiqtisadi təsirlərinin qiymətləndirilməsi // - Bakı: Azərbaycan Milli Elmlər Akademiyası, İqtisadiyyat İnstitutu, Elmi Əsərlər, -2017. №5, - 61-66.

2. Əlixanlı, Y.S. Azərbaycan xalq cümhuriyyətinin 100 illiyinə həsr edilmiş "Müstəqil Azərbaycan dövlətinin ərzaq təhlükəsizliyinin təmin edilməsi və aqrar sahənin rəqabətqabiliyyətinin yüksəldilməsi problemləri" mövzusunda beynəlxalq elmi-praktiki konfrans // Azərbaycan Kooperasiya Universiteti, - Baki: - 1-2 iyun, 2018. –936-938 s.

3. Tağıyev, M. R., Əlixanlı, Y.S. Azərbaycanda Ümüdaxili Məhsul Istehsali Və Xarici Ticarət Göstəricilərinin Stasionarliğinin Qiymətləndirilməsi (Dickey-Fuller Testi) // - Bakı: Azərbaycan Memarlıq və İnşaat Universiteti,TİKİNTİNİN İQTİSADİYYATI VƏ MENECMENT ELMİ-PRAKTİKİ JURNAL -2020. №3, - 63-70.

4. Əlixanlı, Y.S. Azərbaycanda xarici ticarət və onun iqtisadi təsirləri // - Bakı: Tikintinin iqtisadiyyatı və menecment, AMİU, -2020. № 4(13), - s.28-36.

5. Alikhanli, Y. Abdullayev, E. About a Function Leading Economic System to Bifurcation Point // International Journal of Economics and Management Systems, - 2020. 5, - p.292-295.

6. Alikhanli, Y. On the Sustainability of The Dynamics Of Complex Economic Systems // -United Kingdom: International Conference on İnnovative Applied Energy (İAPE/2020), Plenary Speaker, Cambridge, 2020. September 15-16, p. 7,20.

7. Alikhanli, Y. Granger causality analysis of foreign trade impact on economic growth: Case of Azerbaijan // WSEAS Transactions on Environment and Development, DOI: 10.37394/232015.2020.16.38, ISSN / E-ISSN: 1790-5079 / 2224-3496, Volume 16, p. 384-389

8. Alikhanli, Yegana. Some Scenarios on the impacts of the COVID-19 pandemic to automobile import demand function in

Azerbaijan // Journal of Physics: Conference Series 1564, 2020. (012026), - p.6.

9. Gulaliyev G. Mayis, Alikhanli J. Yegana, Bayramov V. Shahin, Guliyeva T. Shafa,Orujova S. Mehpare. [et all] Granger Causality Analysis of Foreign Trade İmpact on Economic Growth and Some Socioeconomic Indicators: Case of Azerbaijan // WSEAS TRANSACTIONS on BUSINESS and ECONOMICS, DOI: 10.37394/23207.2021.18.28, 2020. p. 276-283.

10. Gulaliyev, M.G., Gurbanova, T.T., Alikhanli, Y.S. Comparative Analyze of the Traditional and Islamic Banking Impacts on Poverty / M.G. Gulaliyev, T.T. Gurbanova, Y.S. Alikhanli [et all] // WSEAS Transactions on Business and Economics, 2021. Volume 18, - p. 472-484.

11. Gulaliyev, M.G., Alikhanli, Y.S. ,Abdullayev E.S., Assessing the Impact of the Oil Price Shocks on Economic Growth in Oil-Exporting Arab Countries Gulaliyev, M.G., Alikhanli, Y.S. ,Abdullayev E.S., [et all] // WSEAS Transactions on Business and Economics, 2022. Volume 19, - p. 462-473.

12. Əlixanlı, Y.S. Актуальные вопросы устойчивости нелинейных экономических систем // - Bakı: Azərbaycan Kooperasiya Universiteti, Kooperasiya elmi-praktiki jurnal, İSSN 2218-91-49, -2021, p. 134-140.

Dissertasiyanın müdafiəsi “28” oktyabr 2022-ci il tarixdə saat 16:00-da Azərbaycan Dövlət İqtisad Universitetinin nəzdində fəaliyyət göstərən FD 1.11 Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: AZ 1001, Bakı şəhəri, İstiqlaliyyət küç., 6

Dissertasiya ilə Azərbaycan Dövlət İqtisad Universitetinin kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları Azərbaycan Dövlət İqtisad Universitetinin rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat “27” sentyabr 2022-ci il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 26.09.2022.
Kağızın formatı: 60x84 $_{1/16}$.
Sifariş 22/04. Həcmi 1 ç.v. (36718 işarə)
Tiraj 100.

*“AA – Poliqraf” istehsalat*-kom`*mersiya birliyində hazır diopozitivlərdən istifadə olunmaqla çap edilmişdir.*

*Əlaqə üçün: capevi@internet.ru Tel.: +994552012809*